

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 60 (21.721)

31 mart 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Voleybol üzrə kişilər arasında Azərbaycan çempionatı başa çatmışdır





Martın 30-da Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə kişilər arasında Azərbaycan çempionatının bağlanış mərasimi keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Voleybol Federasiyasının prezidenti Cavid Qurbanov tədbirdə iştirak etmişlər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək demişdir ki, muxtar respublikada idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Muxtar respublikada müasir idman infrastrukturunun yaradılması gənclərin idmana olan marağını artırmış, istedadlı idmançılar yetişmiş, Naxçıvanda ölkə və beynəlxalq səviyyəli idman yarışlarının keçirilməsi təmin edilmişdir. Voleybol üzrə kişilər arasında Azərbaycan çempionatının birinci dövrə və final oyunlarının Naxçıvanda keçirilməsi bunun bariz ifadəsidir.



Azərbaycan Voleybol Federasiyasının prezidenti Cavid Qurbanov çıxış edərək demişdir: Naxçıvan Muxtar Respublikasında bütün sahələrlə yanaşı, idman da inkişaf etdirilir. Bu gün Naxçıvan ölkəmizdə idmanın inkişafına mühüm töhfələr verir. İdmanın müxtəlif növlərinin, xüsusilə voleybolun inkişafı üçün infrastrukturun mövcud olması imkan verir ki, Naxçıvanda perspektivli idmançılar yetişsin. Voleybol üzrə kişilər arasında Azərbaycan çempionatının birinci dövrə və final oyunlarının Naxçıvanda keçirilməsi və bu yarışda Naxçıvan komandasının uğurlu çıxışı bunu bir daha təsdiq etdi.

Azərbaycan Respublikasının gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov idmançıları təbrik edərək demişdir ki, Azərbaycanda idmanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ölkəmizə rəhbərliyi dövründə idmanın inkişafını dövlət siyasətinin üstün istiqamətinə çevirmişdir. Bu gün ölkə Prezidenti tərəfindən də bu siyasət uğurla davam etdirilir. Azərbaycanın idman ölkəsi kimi dünyada nüfuzu güclənir, ölkəmiz beynəlxalq idman yarışlarına ev sahibliyi edir. Yaradılan şəraitin nəticəsidir ki, Azərbaycanın müxtəlif bölgələrində ölkə və beynəlxalq səviyyəli yarışlar keçirilir. Naxçıvanda keçirilən voleybol yarışları bunu bir daha təsdiq edir. Bu gün naxçıvanlı idmançılar Azərbaycan komandalarının tərkibində ölkəmizi beynəlxalq yarışlarda layiqincə təmsil edirlər.





Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının çıxışı olmuşdur.

Martın 28, 29 və 30-da voleybol üzrə kişilər arasında Azərbaycan çempionatının final görüşləri Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilmişdir. Martın 30-da sonuncu final görüşləri keçirilmişdir. Gərgin mübarizə şəraitində keçən oyunlarda "Neftçi" komandası "Naxçıvan" komandasını 3:0, "Lokomotiv" isə "MOİK"ə 3:1 hesabı ilə qalib gəlmişdir. Final oyunlarının nəticələrinə əsasən "Lokomotiv" komandası voleybol üzrə kişilər arasında Azərbaycan çempionatının qalibi olmuşdur. "Neftçi" və "Naxçıvan" komandaları isə müvafiq olaraq ikinci və üçüncü yerlərə çıxmışlar.

Tədbirin sonunda çempionatın qalib komandalarına medallar təqdim olunmuşdur.

Azərbaycan Voleybol Federasiyasının birinci vitse-prezidenti Faiq Qarayev və Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının sədri Mənşur Gülməmmədli üçüncü yerin sahibi olan "Naxçıvan" komandasına, Azərbaycan Respublikasının gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov və Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov ikinci yerə çıxan "Neftçi" komandasına medalları təqdim etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Voleybol Federasiyasının prezidenti Cavid Qurbanov voleybol üzrə kişilər arasında Azərbaycan çempionatının qalibi olmuş "Lokomotiv" komandasına medalları və kuboku təqdim etmişlər. Ali Məclisin Sədri qalib komandaları təbrik etmiş, onlarla xatirə şəkli çəkdirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində kompleks quruculuq işlərinə başlanılıb

Son illər muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində həyata vəsiqə alan, müasir memarlıq üslubu ilə gözoxşayan, bir-birindən yaraşıqlı, müxtəlif təyinatlı binalar yerləşdiyi əraziyə yeni görkəm bəxş etməklə bərabər, ayrı-ayrı yaşayış məntəqələrində əhalinin rahatlığına xidmət edir, yüksəkkeyfiyyətli tədris prosesinin formalaşdırılmasına əlverişli şərait yaradır. Bu istiqamətdə işlər davam etdirilir, quruculuq ərməğanlarının coğrafiyası ildən-ilə genişləndirilir.

Yeni quruculuq ünvanlarından biri də Naxçıvan şəhərinin Qaraxanbəyli kəndidir. Kənddə müasirtipli layihəyə uyğun olaraq üçmərtəbəli məktəb binası, kənd və xidmət mərkəzləri tikilib istifadəyə veriləcək.

İnşaat işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün obyektə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin təcrübəli inşaatçıları və müasir maşın-mexanizmləri cəlb olunub. Hazırda torpaq işləri aparılır, yeraltı kommunikasiya xətlərinin çəkilişinə hazırlıq görülür.

Qeyd edək ki, ötən il Qaraxanbəyli kəndində içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilib. Bu gün kənd sakinləri ekoloji təmiz və dayanıqlı su ilə təmin edilib. Qaraxanbəylidə yeni məktəb binası, kənd və xidmət mərkəzləri tikilib istifadəyə verildikdən sonra kənd muxtar respublikanın müasir və abad yaşayış məntəqələri sırasına qoşulacaqdır.

**Xəbərlər şöbəsi**

**31 Mart – Azərbaycanlıların Soyqırımı Günü**

# Azərbaycan xalqına qarşı ermənilər tərəfindən törədilən soyqırımı siyasəti

***XIX əsrdən başlayaraq ermənilər Qafqazda və Türkiyə ərazisində işğalçılıq niyyətlərini həyata keçirmək və tarixi torpaqlarımız hesabına "böyük Ermənistan" xülyasını reallaşdırmaq üçün ardıcıl olaraq hərbi və ideoloji vasitələrdən istifadə etmiş, XX əsr boyu Azərbaycan xalqına qarşı soyqırımı cinayətləri həyata keçirmişlər. Erməni daşnakları törətdikləri soyqırımları yüz illərdir ki, öz üzərlərindən götürməyə can atır, başqa xalqları günahkar çıxartmağa səy göstərirlər. Əslində isə tarix bunun tamamilə əksini deyir.***



Ermənilərin Qafqaza köçürülməsi, yerləşdirilməsi və dövlətlərinin yaradılması ideyası I Pyotrdan başlayır. Lakin Rusiya bu məqsədə XX əsrin əvvəllərində nail ola bildi. 1802-ci ildə çar I Aleksandr N.D.Sisianova göndərdiyi məktubda göstərirdi ki, nə olursa-olsun ermənilər Azərbaycanın xanlıqlarında istifadə olunmalıdır. IV-XIX əsrlər ərzində öz dövlətlərinə malik olmayan ermənilər dövlətlərini yaratmaq məqsədinə çatmaq üçün Rusiyanın imperiya siyasətinin həyata keçirilməsində alət rolunu oynayırdılar.

Rusiya ilə İran arasında gedən iki müharibənin sonunda imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının tarixində faciəvi rol oynamış və Azərbaycanın parçalanmasına gətirib çıxarmışdır. Türkmənçay müqaviləsinin 14 və 15-ci maddələri "təbəə alış-verişi" ilə bağlı idi. İrandan ermənilərin köçürülməsi məsələsi İkinci Rusiya-İran müharibəsinin (1826-1828) gedişində Sankt-Peterburqda qaldırıldı. Rusiya Osmanlı dövlətinə qalib gəldikdən sonra isə Ədirnə (1829) müqaviləsinə əsasən, Cənubi Qafqazda İrana və Osmanlı imperiyasına qarşı gələcək işğalçılıq planlarını həyata keçirmək üçün xristian istinadgahı yaratmaq məqsədilə İran və Türkiyə ərazisində yaşayan erməniləri kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına, əsasən İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə köçürdü. İrəvan və Naxçıvan xanlıqlarını işğal etmiş general Paskeviç İrandan köçürülən ermənilərin hansı Azərbaycan torpaqlarına istiqamətləndirilməsi barədə konkret göstəriş də vermişdi: köçürülən erməniləri İrəvan və Naxçıvan əyalətlərinə istiqamətləndirmək lazımdır ki, həmin ərazilərdə xristian əhalinin sayı mümkün qədər artırılsın. Nəticədə, 1828-ci ilin, təqribən, 4 ayında (fevral-iyun) İrandan Şimali Azərbaycana – İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə 8249 erməni ailəsi, yəni 40 min erməni köçürüldü. Bir qədər sonra isə Şimali Azərbaycan torpaqlarına Osmanlı dövləti ərazisindən daha 90 min nəfərdən artıq erməni köçürülüb gətirildi.

Ermənilər Şimali Azərbaycan torpaqlarına xüsusi məqsədlə, yəni onlara daimi vətən yaratmaq niyyəti ilə köçürüldü. Bu köçürülməyə rəhbərlik edən erməni mənşəli rus polkovniki Q.Lazarev İran ərazisindən Şimali Azərbaycana köçürülən ermənilərə müraciətlə deyirdi: "...Orada (Şimali Azərbaycanda – İ.H.) siz xristianların məskunlaşdırıldığı yeni vətən əldə edəcəksiniz... İranın müxtəlif əyalətlərinə səpələnmiş xristianların (yəni ermənilərin – İ.H.) bir yerə cəmləşdiyini görəcəksiniz. Tələsin! Vaxt qiymətlidir. Tezliklə rus qoşunları İranı tərk edəcək. Bundan sonra sizin köçməyiniz çətinləşəcək və biz sizin təhlükəsiz köçməyinizə cavabdeh olmayacağıq. Azca itkiyə məruz qalsanız da, qısa zamanda hər şeyə nail olacaqsınız, özü də həmişəlik".

Köçkün axını başlanan kimi heç bir qanuni əsas olmadan erməniləri Naxçıvanda və Qarabağda xan-bəy torpaqlarında yerləşdirməyə başladılar. Qriboyedov bununla bağlı yazırdı: "Ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara əbədi sahib duracaqlarından müsəlmanlar içərisində yaranan qorxunu aradan qaldırmaq üçün mövcud ağır vəziyyətin uzun sürməyəcəyini bildirməklə onları sakitləşdirmək məsələsini biz dəfələrlə götür-qoy etmişik. Lakin Qarabağ və Naxçıvanda çar hökuməti tərəfindən elə bir siyasət yeridildi ki, öz başlarının hayına qalan xalq ermənilərin orada məskunlaşmasını unutmalı oldu".

Bütün tarixi mərhələlərdə azərbaycanlıları qorxudaraq onlara məxsus torpaqları ələ keçirmək üçün ermənilər ən iyrənc üsullardan, qətl və terrordan, yaranmış ictimai-siyasi vəziyyətlərdən istifadə etməyə çalışmışlar. Ermənilər "böyük Ermənistan" yaratmaq xülyası ilə XX əsrin əvvəllərində, yəni 1905-1907-ci illərdə əvvəlcə Bakıda, sonra isə Azərbaycanın, eləcə də Qafqazın digər regionlarında azərbaycanlıların soyqırımını həyata keçirmişlər. 1905-ci ilin fevralında Bakıda başlanan erməni-müsəlman qırğınları bir təsadüf nəticəsində deyil, məhz bütün Qafqazın varlı ermənilərinin zaman-zaman toplandıqları şəhərdə planlı şəkildə baş vermişdir. Ermənilər Bakıda erməni varlılarının köməyi ilə istədiklərinə nail olacaqlarına, Bakının neft səltənətini əllərinə keçirəcəklərinə və bundan sonra bütün Zaqafqaziyadan müsəlmanları silah gücünə qovub Ermənistan dövləti yaradacaqlarına əmin idilər. Lakin fevralın 6-dan 10-a qədər Bakıda şiddətlə davam edən qırğınlar zamanı ermənilərin niyyətləri baş tutmamış və məğlub olmuşlar. Bundan sonra Bakıda başlanan qırğın may-iyun aylarında Gəncə, Qarabağ, Şirvan, Zəngəzur, İrəvan, Şuşa, Cəbrayıl, Cavanşir, Qaryagin və başqa bölgələri də əhatə etdi.

1905-ci ilin may ayından başlayaraq Naxçıvan qəzasında da ermənilərin azərbaycanlılara qarşı qırğınları başladı. Ermənilərin Naxçıvanda törətdikləri qırğınlar Ordubad, Cəhri, Şıxmahmud, Kültəpə, Əliabad, Çeşməbasar, Tivi, Tumbul və onlarla başqa şəhər və kəndləri əhatə etdi. Kazakların köməyindən istifadə edən ermənilər 1905-ci il noyabrın 26-da Naxçıvan şəhərindəki müsəlman bazarını tamam qarət etdikdən sonra ona od vurdular. Yanğın nəticəsində bazarda 85 dükan, 75 anbar və başqa tikililər yanıb məhv oldu. Noyabr ayının 30-da Cəhri kəndinin yandırılmasında da kazaklar ermənilərlə birlikdə hərəkət etmişdilər. Təxminən, iki il qədər davam edən qanlı toqquşmalar nəticəsində Azərbaycan şəhərlərinə böyük zərər dəymiş, 300-dən çox müsəlman kəndi dağıdılmış, müxtəlif məlumatlara görə, ölənlərin sayı 80-100 min nəfərə çatmışdı. İki ilin hadisələri Azərbaycan tarixində ermənilər tərəfindən sonralar silsilə halını almış, xalqımıza qarşı soyqırımın ilk mütəşəkkil mərhələsi olmuşdur.

Keçən əsrin ikinci onilliyində ermənilərin azərbaycanlılara qarşı törətdikləri 1918-ci il soyqırımı daha geniş miqyas almış və daha amansız olmuşdur. Özlərini dünya ictimaiyyətinə "yazıq millət", "əzabkeş xalq" kimi qələmə verərək azərbaycanlılara qarşı vəhşiliyi Bakıda, Qubada, Şamaxıda, Lənkəranda, Salyanda, Göyçayda və başqa yerlərdə bolşevik adı ilə pərdələnmiş S.Şaumyanın rəhbərlik etdiyi Bakı Kommunası hökumətinin əli ilə həyata keçirdilər. Bakıda erməni daşnakları dinc əhaliyə üç gün divan tutmuş, 17 min azərbaycanlını məhv etmiş, müsəlman məhəllələrini talayıb-çapmış, "İsmailiyyə"ni yandırmış, bir neçə qəzet və jurnal redaksiyalarını dağıtmışlar. A.Mikoyanın "Qızıl qvardiyası"nın vəhşiliyi nəticəsində İçərişəhərdə yaralılar yatan xəstəxanaya od vurulmuş, 2 minədək xəstə yandırılmış, qaçanlar isə güllələnmişdir.

Bakı şəhərində azərbaycanlıların soyqırımı bolşevizm bayrağı altında həyata keçirilirdi. Guya bolşeviklər hökumətə qarşı çıxış edən qüvvələrə divan tuturdular. Əslində isə bolşevik adı ilə pərdələnən ermənilərin azərbaycanlılara qarşı törətdikləri milli qırğın, soyqırımı idi.

Görkəmli dövlət xadimi Nəriman Nərimanov ermənilərin törətdikləri qırğınlardan dəhşətə gələrək yazırdı: "Müsəlman hətta bolşevik olsaydı belə, ona aman vermirdilər. Daşnaklar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olmağın kifayətdir". Onlar kefi istədikləri adamı öldürür, evləri dağıdır, xaraba qoyurdular... Bolşevizm bayrağı altında daşnaklar müsəlmanlara qarşı hər cür vəhşiliyə yol verir, uşaqlara və hamilə qadınlara belə rəhm etmirdilər.

Silahsız əhaliyə qarşı çox böyük silahlı qüvvə ilə çıxış edən bolşevik daşnakları törətdikləri qırğınlardan həzz alırdılar. S.Şaumyan bolşevizm bayrağı altında qırğınlar törətsə də, baş vermiş qanlı faciələrdən vəcdə gələrək öz daşnak simasını gizlədə bilməyib yazmışdı: "Şəhərlərimizin milli tərkibi bizi narahat edirdi. Biz mübarizənin arzuolunmaz xarakter alacağından qorxurduq. Biz hətta erməni polkunun yardımına belə, əl atmalı olduq. Biz hətta onun köməyindən imtina etməyi mümkün hesab etmədik. Qələbə isə o qədər böyükdür ki, bu gerçəkliyə az kədər gətirir".

Bakı ilə yanaşı, ermənilər Azərbaycanın digər şəhərlərində – Qərbi Azərbaycanda, Naxçıvanda, Zəngəzurda, azərbaycanlılar yaşayan başqa bölgələrdə onlara qarşı tarixdə görünməmiş qəddarlıq etmiş, azərbaycanlılara divan tutmuşlar. 1918-1920-ci illərdə azərbaycanlılara qarşı soyqırımı həm miqyas etibarı ilə, həm də vəhşiliyi ilə heyrət doğurur. Azərbaycanlıların yaşadıqları elə ərazi yox idi ki, orada erməni vəhşiliyi özünü göstərməsin.

Erməni quldurları Bakıdakı milli qırğınla kifayətlənməyib, 1918-ci ilin yazında Şamaxıda, Quba-Xaçmaz bölgələrində, Salyanda, Lənkəranda və başqa yerlərdə də azərbaycanlılara qarşı soyqırımı törətdilər. 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 50 min azərbaycanlı qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşlar.

1918-1920-ci illərdə ermənilər Bakı quberniyasında 229, Gəncə quberniyasında 272, İrəvan quberniyasında 211, Zəngəzurda 115, Qarabağda 157, Qars əyalətində 92, İqdır və Eçmiədzin qəzalarında 60, Göyçə quberniyasında 22, Sürməli qəzasında 96, Yeni Bəyaziddə 84, Şərurda 76, Vedibasarda 118, Dərələyəzdə 74 kəndi yerlə yeksan etmiş, yandırmış və əhalisinin çoxunu qırmışlar. Daşnaklar həmin illərdə Qərbi Azərbaycanda (indiki Ermənistanda) qədim ata-baba yurdlarında yaşayan 565 min azərbaycanlını məhv etmişdilər.

Bu illərdə Azərbaycandan ayrı düşmüş Naxçıvan bölgəsinə yiyələnmək xülyasına düşən daşnaklar yerli əhaliyə qarşı vəhşiliklər törədir, onları öldürür və bu ərazini azərbaycanlılardan boşaltmağa çalışırdılar. 1918-ci ildə Naxçıvanda ən dəhşətli vəhşiliklər törədənlər içərisində "tayqulaq erməni daşnak generalı" Andranik Ozanyan xüsusi yer tutur. Bu qaniçən cəllad təkcə Gilançay və Əlincəçay hövzələrində 80-dən artıq kəndi viran qoymuş, əhalisini isə amansızlıqla qətlə yetirmişdir.

Həmin dövrdə Naxçıvanda yaranmış Müsəlman Milli Komitəsinin katibi işləmiş Mirzə Bağır Əliyev hadisələrin, erməni vəhşiliklərinin bilavasitə şahidi olmuş və onları qələmə almışdır. Aydın olur ki, Azərbaycanın bu qədim guşəsi və onun sakinləri də başqa torpaqlarımız kimi erməni millətçilərinin düşmən siyasətinin hədəfinə çevrilmişdir. Ərzurumda nəşr olunan "Kaf dağı" qəzeti Türkiyə qaynaqlarına əsaslanaraq məlumat verirdi ki, 1918-1921-ci illərdə Naxçıvan bölgəsində ermənilər tərəfindən 73 min 727 nəfər azərbaycanlı ən vəhşi üsullarla öldürülmüşdür. Təsadüfi deyildir ki, 1921-ci ildə Naxçıvan bölgəsinin əhalisinin sayı azalaraq 72 minə enmişdi.

Ümumiyyətlə, araşdırmalar nəticəsində sübut olunmuşdur ki, erməni hərbi birləşmələri 1914-1916-cı illərdə Azərbaycanın cənubunda 150 min, Şərqi Anadoluda, Azərbaycan türklərinin yaşadıqları bölgədə 200 min, 1918-1920-ci illərdə Azərbaycanda 250 min, Qərbi Azərbaycanda 132 min azərbaycanlını vəhşicəsinə qətlə yetirmişlər.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da ermənilər azərbaycanlılara qarşı soyqırımı siyasətini davam etdirmişlər. Ötən əsrin 20-30-cu illərində, eləcə də müharibədən sonrakı dövrdə ermənilər azərbaycanlıların həbs edilərək Sibirə göndərilməsində, xalq düşməni adı altında güllələnməsində, din xadimlərinin və görkəmli ziyalıların məhv edilməsində, əsassız repressiyaların günahsız insanlara qarşı tətbiq olunmasında çox böyük rol oynamışdır. Azərbaycan millətinin qatı düşmənləri tərəfindən onun ən yaxşı övladlarının siyasi qərəzçiliklə məhv edilməsi belə bir kədərli faktla sübut olunur ki, Azərbaycandakı 51 rayondan 31-də Xalq Daxili İşlər Komissarlığı rayon bölməsinin başında ermənilər dururdular.

Rəsmi məlumatlara görə, 1937-ci ildə Azərbaycanda 100 min nəfərdən artıq adam sürgün edilmiş, 3 min kəndli məhv edilmiş, "xalq düşməni" kimi 29 min nəfər güllələnmiş və ya Sibirə sürgün edilmişdi. Hüquq-mühafizə orqanları sistemində ermənilərin çoxluq təşkil etməsi repressiyanın azərbaycanlılara qarşı daha dəhşətli formada həyata keçirilməsi ilə nəticələnmişdi.

Müharibə illərində A.Mikoyan Stalini azərbaycanlıların guya xəyanət edə biləcəklərinə inandıra bilmiş və 1942-ci ilin dekabrın 7-də Azərbaycan əhalisinin hamılıqla Orta Asiya və Qazaxıstana sürgün edilməsi haqqında məxfi qərar verilməsinə nail olmuşdular. Lakin respublika rəhbərliyinin göstərdiyi səylər Stalini fikrindən daşındırmış, cinayətin həyata keçirilməsinə imkan verməmişdir.

Xəbis niyyətlərindən əl çəkməyən erməni daşnakları müharibədən sonrakı mərhələlərdə Qərbi Azərbaycan ərazisindən azərbaycanlıların deportasiyasına nail olmuşlar. 1948-1953-cü illərdə 144 min 654, 1988-1992-ci illərdə isə 250 min soydaşımız indiki Ermənistan ərazisindən, azərbaycanlıların tarixən yaşadıqları ata-baba yurdundan zorla çıxarılmış, 229 azərbaycanlı isə vəhşicəsinə qətlə yetirilmişdir.

Son illərdə Dağlıq Qarabağdakı 80 yaşayış məntəqəsindən 60 min azərbaycanlı doğma ocaqlarından didərgin salınmış, işğal olunmuş 7 rayondan 700 min azərbaycanlı ev-eşiyini tərk edib respublikanın 58 rayon və yaşayış məntəqələrində məskunlaşmışdır. Hərbi əməliyyatlar nəticəsində respublikamızın 10 şəhəri, 876 kənd, 700 ictimai bina, 693 məktəb, 862 mədəniyyət sarayı və klub, 652 tibb məntəqəsi, o cümlədən 191 xəstəxana, 160 körpü, 800 kilometr avtomobil yolu, 15 kilometr elektrik xətti dağıdılmış, 30 mindən artıq soydaşımız qətlə yetirilmiş, 52 milyard ABŞ dolları dəyərində maddi ziyan vurulmuşdur. Erməni cəlladları tərəfindən törədilən Xocalı soyqırımı isə dünya tarixində analoqu olmayan vəhşilikdir.

Yaradılanda 10 min kvadratkilometr əraziyə malik olmayan Ermənistan Respublikasının Azərbaycan torpaqlarını işğal etməsi hesabına ərazisini 30 min kvadratkilometrə çatdırmışlar. Buna baxmayaraq, ermənilər "böyük Ermənistan" yaratmaq üçün bu gün də hər cür hiylə və vasitələrə əl atırlar.

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə ali hakimiyyətə qayıdışından sonra mart soyqırımına dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Ulu öndərin 1998-ci il 26 mart tarixli "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanına əsasən 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü kimi ölkəmizdə və onun hüdudlarından kənarda qeyd edilir. Fərmanda deyilir: ***"Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə – 1918-ci il mart soyqırımına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq, soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".***

*Xalqımıza qarşı törədilmiş soyqırımları, onların dərslərini unutmağa bizim haqqımız yoxdur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı müxtəlif mərhələlərdə törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək bizim mühüm vəzifəmiz olmalıdır.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## Mərdlik, vətənpərvərlik və qəhrəmanlıq ünvanı

### Culfa rayonunun Yaycı kəndindən reportaj

***Culfa rayonunun Yaycı kəndi Naxçıvan Muxtar Respublikasının ən böyük yaşayış məntəqələrindən biridir. Arazın sahilində Qızılqaya dağının ətəyində yerləşən bu kənd qədim tarixə malikdir. Doqquzuncu əsrdə yaradıldığı ehtimal olunan Yaycıda bu gün 7 minə yaxın sakin yaşayır. Yaycı həm də 1918-ci ildə ermənilərin hücumları vaxtı ən çox qırğınlara məruz qalan yurd yerlərindən biridir. Bunu tarixi faktlar və canlı şahidlərin söylədikləri də təsdiq edir.***




Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra bir vaxtlar təhrif edilən tarixi həqiqətlər yenidən araşdırılmağa başlanıldı, ötən əsrin əvvəllərində başımıza gətirilən müsibətlər barədə tarixi faktlar ortaya çıxarıldı. 1918-ci ildə erməni cəlladların törətdiyi soyqırımı aktı barədə də tarixi mənbələrdə qeyd edilən dəhşətli hadisələr barədə ictimaiyyət məlumatlandırıldı, tariximiz yenidən yazıldı. Bu gün 1918-ci ildə baş vermiş hadisələr haqqında təhsil ocaqlarında yeniyetmə və gənclərə ətraflı məlumat verilir, onların vətənpərvərlik hisslərinin gücləndirilməsi diqqətdə saxlanılır, tarixi yaddaşın qorunması üçün tədbirlər həyata keçirilir.

Həmin il daşnaklar muxtar respublikanın bir sıra bölgələrində olduğu kimi, Culfa rayonunun Yaycı kəndində də kütləvi qətllər törədiblər. Məhz buna görə Yaycıda böyükdən-kiçiyə hamı soyqırımı qurbanları uyuyan ərazidə abidə ucaldılması arzusunda olub. 2007-ci ildə yaycılıların arzu və istəyi gerçəkləşdirilib. Kənddə soyqırımı qurbanlarının xatirəsinə abidə inşa olunub, ətrafında park salınıb. İndi bura kənd sakinlərinin, xüsusilə də gənclərin müqəddəs and yerinə çevrilib. Kəndin meydanında ucaldılmış həmin abidə bu gün hər bir yaycılının və bura gələn qonaqların ziyarət etdiyi yerlərdən biridir.

Azərbaycanlıların Soyqırımı Günü ərəfəsində biz də həmin yaşayış məntəqəsindəyik. Abidəni ziyarət etdikdən sonra kənd camaatı ilə görüşüb onlarla söhbət edirik.

Yaycı kəndində doğulub boya-başa çatan ziyalı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Fərəc Fərəcov doğma yurd yerindən bəhs edən bir neçə kitabın müəllifidir. Onlar içərisində hər bir yaycılının stolüstü kitabına çevrilmiş “Yaycı soyqırımı” kitabı da var. Müəllifin uzun illər apardığı araşdırmalar, həmin dəhşətli faciənin şahidləri ilə söhbətlər əsasında qələmə aldığı kitabını həyəcansız oxumaq mümkün deyil. Yaycıda görüşüb həmsöhbət olduğum Fərəc Fərəcov deyir ki, tarix kitabımızda qara hərflərlə yazılmış bir neçə səhifə var. Azərbaycan xalqının məğrurluğunu, qəhrəmanlığını, düşmən qabağında əyilməzliyini də göstərən bu səhifələr son illərdə daha çox vərəqlənir. 70 il sovet dönəmində bu səhifələrdə olan həqiqətlər xalqdan gizli saxlanılıb. Lakin ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra bu məsələyə prinsipial yanaşma nümayiş etdirilib, erməni millətçilərinin xalqımıza qarşı illərlə reallaşdırdıqları soyqırımı və deportasiya siyasətinin mahiyyəti açıqlanıb. Bununla da təhrif edilmiş tarixin bugünkü və gələcək nəsillərə olduğu kimi çatdırılması imkanı əldə etmişik. Xalqımızın başına gətirilən faciələr barədə saatlarla, günlərlə danışmaq olar. Bu faciələrdən birini 1918-ci ildə qaniçən Andranikin quldur dəstəsi Culfa rayonunun Yaycı kəndinin sakinlərinə yaşadıb. Həmin dövrdə Yaycının 2500-dən artıq sakini qılıncdan keçirilib.

Yaycı kəndinin ən yaşlı sakinlərindən biri Abdulla Səfərovdur. O, 1923-cü ildə anadan olub. Atasından, qonşuları Hacı İbrahimdən, Hidayət Salahovdan və digər o günləri yaşamış yaycılılardan eşitdiyi faciəni danışarkən haldan-hala düşür, gözləri dolur. Həyəcansız dinləmək mümkün olmayan bu söhbətlərin fonunda həmin hadisələri təsəvvürümdə canlandırmağa çalışıram.

Abdulla dayının sözlərinə görə, “min evli” adlandırılan bu kənddə 1918-ci ildə elə bir ailə olmayıb ki, faciənin qurbanına çevrilməsin. Hər ailənin bir, iki və daha çox üzvü erməni qaniçənlərindən canlarını qurtara bilməyiblər. Onlarla ailə bütün üzvləri ilə birlikdə evlərində qətlə yetirilib.

1918-ci ilin iyun ayında erməni faşistləri tərəfindən törədilən soyqırımı kəndin əhalisini yarıbayarı azaldıb. İtkin düşənlər də olub. Kənddə 7 il matəm saxlayıblar. Xeyir mərasimləri, şənliklər keçirilməyib.

– Yaycılılar çox qorxmaz insanlardır. Düşmən qabağından qaçmağı özlərinə sığışdırmayan yaycılılar başqalarına da özləri kimi inanırlar. Elə başlarına gələnlərə də bu inam səbəb olub, – deyə Abdulla Səfərov gözlərini uzaqlara zilləyir, bir qədər sonra söhbətinə davam edir:

– Ordubad rayonunun qonşu Aza və Darkəndində yaşayan ermənilərin Andranikin planlarından xəbərləri varmış. Həmin ermənilər yaycılıları inandırmağa çalışıblar ki, Andranikin dəstəsi buradan səssiz-səmirsiz keçəcək, sizə heç bir xətər toxundurmayacaq. Və bu yalanla kənd adamlarını aldada biliblər.

Andranik Ozanyan 5 min nəfərlik qoşunla (onlardan 4 mini piyada, mini isə süvari dəstə olub) Naxçıvan ərazilərinə daxil olub və ilk qəfil zərbəsini Naxçıvanın iri yaşayış məntəqələrindən biri olan Yaycıya vurub.

Ermənilər kəndə günorta vaxtı hücum ediblər. Bu, o vaxt idi ki, kəndin kişiləri çöl işlərinə gedibmişlər. Kimisi otunu biçir, kimisi əkinlərini suvarır, kimisi digər kənd təsərrüfatı işləri görürmüş. Kənddə qalanlar yalnız qadınlar, uşaqlar, qocalar və xəstələr idi. Azğınlaşmış quldur dəstələri bir günün içində kəndi yerlə yeksan edib. Evlər qarət olunaraq yandırılıb, qocalar, qadınlar, uşaq və körpələr qılıncdan keçirilib. Yaycılıların bəziləri isə Araz çayından o tərəfə keçmək istəyərkən həlak olub.

Abdulla kişi həmkəndlisi, dünyasını dəyişmiş Zəhra İsmayılovanın dediklərini xatırlayır: – O Andranik məlun Zəhragilin də ailəsinə sağalmaz yaralar vurub. Zəhranın anasıgil altı bacı olublar: Fatma, Leyla, Züleyxa, Səmənnaz, Zəhra və anası Həlimə. Onlardan salamat qalanı təkcə Həlimə olub. Xalalarının beşini də ermənilər uşaqları, körpələri ilə birlikdə qəddarlıqla öldürüblər. Züleyxanın təkcə bir övladı təsadüfən sağ qalıb. Adı Abbas idi. Erməni quldurу onu qamçı ilə vurub anasının yanına sərib. Hər ikisini ölmüş biliblər. Lakin xoşbəxtlikdən uşaq sağ qalıb.

Yaycı kənd sakinləri Məmməd Məmmədov, Cəfər Əliyev, Müseyib İsmayılov, Səkinə Quliyeva və başqalarının söhbətləri hər birimizi dəhşətə gətirir. Qəddar Andranik o vaxt Naxçıvanın ən iri kəndlərindən biri olan Yaycını dağıdıb viran qoyub. Yaycının indiki sakinləri öz doğmalarının, əzizlərinin başına gətirilmiş o qanlı qırğını heç vaxt unutmurlar. O müdhiş faciədən zaman keçsə də, onun odu-alovu ürəklərdə sönməyib, yaycılıları düşmənə qarşı daim sərvaxt olmağa səfərbər edib... Bu gün yaycılılar o vaxt baş verənlər barədə olan məlumatları uşaqlara da öyrədirlər. Yaycıdan kənarda yaşayanlar bu soyqırımı haqqında yaşadıqları ünvanlarda danışırlar.

* * *

Yaycı kənd 2 nömrəli tam orta məktəbin direktoru Ramiz Vəliyev deyir ki, 1941-1945-ci illər müharibəsi də yaycılılar üçün itkisiz ötüşməyib. Bu müharibədə 100-dən çox yaycılı evinə qayıtmayıb. Kənddə onların da şərəfinə abidə ucaldılıb.

1988-ci il hadisələri zamanı yaycılıların vətənpərvərliyi bir daha özünü büruzə verib. Kənd sakinləri, o cümlədən cavanlar çox böyük mütəşəkkilliklə Naxçıvan Muxtar Respublikasının sərhədlərini azğınlaşmış ermənilərdən qoruyublar. O vaxtlar Yaycının könüllü dəstələri Sədərək, Şahbuz dağlarında, Ordubad ətrafında ermənilərlə ölüm-dirim savaşında əsl qəhrəmanlıqlar göstəriblər. Ümumiyyətlə, Yaycı Dağlıq Qarabağda və muxtar respublikanın torpaqlarının müdafiəsində 6 şəhid verib. Azadlığımız və Vətəni yağı düşməndən qoruması naminə canlarını qurban verən həmin igidlərin adları yaycılıların, həmçinin bütün xalqımızın qəlbində əbədiləşib.

* * *

Yaycıda iki məktəb fəaliyyət göstərir. Həmin məktəblərə də baş çəkirik. Hər iki təhsil ocağında düzəldilmiş sərgilər, burada soyqırımla bağlı keçirilən tədbirlər diqqətimizi cəlb edir. Yaycı kənd 2 nömrəli tam orta məktəbində Fərəc Fərəcovun “Yaycı soyqırımı” kitabının müzakirəsi keçirilirdi. Kitabda ermənilərin məkrli niyyətləri açılır, oxucu I Pyotrun bədnam vəsiyyətnaməsi, zaman-zaman ermənilərin Azərbaycan torpaqlarına basqınları, dəhşətli qırğınları ilə tanış olur. Yaycı soyqırımı öz dəhşətləri ilə həmin soyqırımlarla müqayisə edilir.

Tədbirdən sonra məktəblilər kənddəki hər iki abidəni ziyarətə gətirdilər. Məktəblilər soyqırımı mövzusunda yazılmış şeirləri bədii qiraət etdilər.

*Yaycıdan ayrılarkən düşünürəm: Bu gün Azərbaycan dövlətinin apardığı sülhsevər siyasət nəticəsində dünya ermənilər tərəfindən xalqımızın başına gətirilən faciələrdən artıq xəbərdardır. Dünyanın azadlıqsevər millətləri səsimizə səs verməkdədir. Bu gün hər kəs əmindir ki, istər sülh, istərsə də hərbi yolla olsun, yaxın vaxtlarda erməni tapdağı altında olan torpaqlarımıza qovuşacağıq. Vətən uğrunda şəhid olanların ruhu məhz həmin vaxt rahatlıq tapacaqdır.*

**✍ Muxtar MƏMMƏDOV**

## Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbirlər keçirilib

***Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında keçirilən tədbiri şuranın sədri Sucaxan Novruzov açıb.***



Bildirilib ki, 1918-ci ilin mart qırğınları mənfur ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı aktlarından biridir. 31 mart soyqırımı isə milli faciə tariximizin heç zaman unudulmayacaq səhifəsini təşkil edir. Xalqımıza qarşı soyqırımı törədilməsində əsas məqsəd torpaqlarımızın işğalı və “böyük Ermənistan” dövlətinin yaradılması idi. Ermənilər XIX əsrin sonlarından başlayaraq Azərbaycan xalqına qarşı soyqırımı və deportasiya, etnik təmizləmə siyasəti yürüdərək 1905-1907, 1918-1920-ci illərdə Bakıda, Qubada, Lənkəranda, Şamaxıda, Naxçıvanda dəhşətli qırğınlar törədiblər. 1918-1920-ci illərdə Naxçıvanda ermənilər tərəfindən 73 min 727 nəfər azərbaycanlı qətlə yetirilib. Lakin yerli özünümüdafiə dəstələri erməni işğalçılarına qarşı əzmkarlıq və mətanətlə mübarizə aparıblar. Ötən əsrin 80-ci illərinin sonlarından etibarən mənfur ermənilər Azərbaycanın ərazi bütövlüyünə qarşı işğalçılıq müharibəsinə başlayaraq 20 faiz torpaqlarımızı işğal ediblər.

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri bu soyqırımı aktı ilə bağlı məsələyə ilk siyasi-hüquqi qiymətin ümummilli lider Heydər Əliyev tərəfindən verildiyini qeyd edən Sucaxan Novruzov vurğulayıb ki, ulu öndər Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Fərman Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından mühüm tarixi sənəddir. Diqqətə çatdırılıb ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində aparılan məqsədyönlü siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirdə çıxış edənlər bildiriblər ki, xalqımızın başına belə faciələrin gətirilməsi hamımızı düşündürməlidir. Xalqımız mənfur düşmənin məkrli əməllərinə qarşı ayıq-sayıq olmalıdır. Qeyd olunub ki, ermənilər törətdikləri cinayətlərə görə tarix qarşısında cavab verəcəklər. Dövlət başçısının sözləri ilə desək, biz yalnız tarixi ədalətin bərpa edilməsini, işğal və soyqırımı siyasəti yürüdənlərin beynəlxalq ictimaiyyət qarşısında cavab verməsini istəyirik.

Tədbirə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Sucaxan Novruzov yekun vurub.

**Xəbərlər şöbəsi**

* * *

Dünən Naxçıvan Tibb Kollecində də 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar tədbir keçirilib. Öncə soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Kollecin direktoru Sona Məmmədova tədbiri giriş sözü ilə açaraq 1918-ci ilin mart soyqırımından bəhs edib, o dövrdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğının xalqımızın tarixinə qanlı hərflərlə yazıldığını, tarixin bütün dönəmlərində erməni qəsbkarlarının vətənimizə və xalqımıza qarşı məkrli addımlar atdığını diqqətə çatdırıb.

Sonra kollecin müəllimləri Rəna Vəliyeva və Xanım Kazımova 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində minlərlə azərbaycanlının qətlə yetirildiyi, on minlərlə insanın itkin düşdüyü barədə faktlarla ətraflı məlumat veriblər. Vurğulanıb ki, ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanı ilə 31 martın Azərbaycanlıların Soyqırımı Günü elan edilməsi və bu hadisələrə siyasi-hüquqi qiymət verilməsi soyqırımı haqqında tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayıb. Əsası ulu öndərimiz tərəfindən qoyulan siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində dünya ictimaiyyəti xalqımıza qarşı törədilən bu soyqırımı aktı ilə bağlı həqiqətlərlə yaxından tanış olub.

Sonda tədbir iştirakçıları Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar sənədli filmə baxıblar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## 31 mart soyqırımı tələbə-rəssamların gözü ilə

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş sərgi təşkil olunub.

Sərgini giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq 1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Azərbaycanın müxtəlif bölgələrində xalqımıza qarşı ermənilər tərəfindən törədilən ağlasığmaz vəhşiliklərdən və cinayətlərdən danışıb. Rektor belə sərgilərin təşkilinin əhəmiyyətli olduğunu vurğulayıb.

Sonra sərgiyə baxış olub.

Sərgidə mart soyqırımı gənc rəssamların təsəvvürlərində yenidən canlandırılaraq ictimaiyyətə rənglərin dili ilə çatdırılıb, onların soyqırımı hadisələrinə olan münasibətlərini əks etdirən işləri təqdim edilib. Sərgidə yer alan əsərlərdə cinayətkar erməni millətçilərinin vəhşiliyi nəticəsində qətlə yetirilmiş, erməni zülmünə məruz qalmış insanlar gənc tələbələrin yaradıcılığında nümayiş etdirilib.

**Nərmin CABBAROVA**



# Naxçıvanda builki yaz turizm mövsümü uğurlu başlayıb

***Muxtar respublikanın xarici iqtisadi əlaqələri genişləndikcə burada turizm sektoru da sürətli inkişaf edir. Bu, istirahəti üçün diyarımızı seçən turistlərin sayının artmasında da özünü göstərir. Müşahidələrimizə əsasən deyə bilərik ki, mart ayının əvvəllərindən etibarən əcnəbi turistlərin Naxçıvana axını daha da artıb. Bunu Novruz bayramı ilə əlaqələndirmək də olar. Ancaq bu gün Novruz bayramı artıq geridə qalıb və buna baxmayaraq, muxtar respublikaya turist axını hələ də davam edir. Bütün bunlar Naxçıvanda turizmin inkişafı istiqamətində uzun illərdən bəri həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsində mümkün olub.***

Bu işlər isə sistemli şəkildə aparılıb. Əvvəlcə muxtar respublikada turizm infrastrukturu tamamilə yenilənib, müasirləşdirilib. Daha sonra turistlərin rahat səyahəti üçün lazımi şərait yaradılıb və bu, turizmin inkişafına əsaslı təsir göstərib. Ötən ilin mart ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada turizmin inkişaf etdirilməsi ilə bağlı müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar görülmüş işlər də həmin sahənin inkişafında mühüm rol oynayıb. Çünki turizm elə bir həssas sahədir ki, burada hər bir kəsin öz işi ilə, həm də yüksək məsuliyyətlə məşğul olması son məqsədə çatmağı şərtləndirən əsas amillərdəndir. Bütün dünyada olduğu kimi, bizim də turizmin inkişaf etdirilməsində əsas məqsədimiz ölkəmizi tanıtmaq və turistlərə göstərilən xidmətlər hesabına əlavə valyuta gəlirləri əldə etməkdir.




Əminliklə demək olar ki, Naxçıvana səyahət edən turistlərin bəxti gətirib. Çünki qədim diyara gələn turistlərin səfər xatirələrində ancaq gözəl tarixi abidələr və müasir tikililərlə bəzədilmiş şəhər, həssas qonaqpərvərlik, dəqiq xidmətin yaratdığı təəssüratlar qalır. Bu il bir həftədən çox müddətdə Naxçıvanqalada keçirilən Novruz şənliklərinə tamaşa edərək əylənən turistlər üçün bu təəssüratlar daha da yaddaqalan oldu. Naxçıvan şəhərində rastlaşdığımız turistlərin məmnunluğu və turizm xidmət müəssisələrinin nümayəndələri ilə aparılan söhbətlərdən də bu qənaətə gəldik. Və bir daha əmin olduq ki, Naxçıvana bir dəfə gələn turistin bir daha buraya gəlmək arzusunun yaranması üçün çox işlər görülüb. Turistlərə bələdçi xidmətlərinin yüksək səviyyədə təşkil olunması, milli musiqilərimizlə müşayiət olunan canlı konsertlər, müxtəlif çeşiddə milli yeməklərin təklifi, əl işləri sərgiləri, alış-veriş və əyləncə tədbirləri naxçıvanlılar kimi turistlərin də asudə vaxtının mənalı keçməsinə imkan yaradıb.

Naxçıvana gəlmiş turistlərin maraqları, eləcə də onlara göstərilən xidmətlər barəsində muxtar respublikamızın iri otellərindən biri olan 5 ulduzlu “Təbriz” mehmanxanasında da bu günlər çox qələbəlikdir. Mehmanxana foyesindəki turistlərin çoxluğundan buradakı nömrələrin hamısının tutulduğunu anlamaq çətin deyildi. Elə mehmanxana müdiriyyəti də bu fikrimizi təsdiqləyərək dedi ki, bu gün Naxçıvan şəhərindəki başqa otellərdə olduğu kimi, burada da boş yer yoxdur. Bu isə, əslində, mehmanxananın işini canlandıran əsas amildir. Xidməti heyət çalışır ki, qəbul etdiyi turistlərə qüsursuz xidmətlər göstərsin. Turistlər isə buradakı zərf xidmətləri maraqla qarşılayırlar. Turist qatarı ilə keçirilən şəhər turu ilə yanaşı, Əshabi-Kəhf ziyarətgahına, Naxçıvanqalaya, Duzdağa, Möminə xatın məqbərəsinə, Batabata və digər görməli yerlərə böyük maraq vardır. Turistlərin istifadə etdikləri taksi xidmətlərinə də nəzarət olunur. Yalnız turistlərin tələbatlarına uyğun xidmət göstərə bilən nümunəvi taksi sürücülərinin xidmətindən istifadə edilir. Bu da xidmət sahəsində peşəkarlığın daha da artırılmasına və turistlərin rahat səyahətinə imkan yaradır.

Bəli, verilmiş tapşırıqlar, görülən işlər artıq öz bəhrəsini verməkdədir. Görürük ki, turizm, həqiqətən, ümumi inkişafın nəticəsi olmaqla yanaşı, həm də onun aparıcı amillərindən biri ola bilər. Naxçıvanın çox dəyərli tarixi abidələri, zəngin mədəniyyəti, unikal milli mətbəxi və buradakı qonaqpərvərlik peşəkar xidmətlə birləşdikcə turistlərin də diyarımıza olan marağı hər keçən gün artacaqdır. Yurdumuza gələn hər bir səyahətçi isə həm də diyarımızın könüllü tanıtım elçisinə çevrilir.

**✍ Əli CABBAROV**

# Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə növbəti görüş keçirilib

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə maarifləndirici görüş keçirilib.***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Dövlət Miqrasiya Xidməti tərəfindən təşkil olunan görüşü giriş sözü ilə xidmətin əməkdaşı Rüfanə Qarayeva açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.



Tədbirdə Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru Gülnarə Sadiqova Naxçıvan Muxtar Respublikasının memarlıq abidələri barədə tədbir iştirakçılarına məlumat verib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası zəngin tarixə malikdir. Burada əldə olunan maddi-mədəniyyət nümunələri Naxçıvanın ilkin sivilizasiyalı yaşayış məskənlərindən biri olduğunu sübut edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi: “Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır”. Tədqiqatlar göstərir ki, hələ eramızdan əvvəl Naxçıvan ərazisində ulu əcdadlarımız yaşamış və yaratmışlar. Onların özlərindən sonra qoyub getdikləri tarix və mədəniyyət abidələri bu qədim yurdun Azərbaycançılıq möhürüdür. Naxçıvan torpağı antik, orta əsrlər və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə, ilk insanların yaşadıqları mağaralar, qədim yaşayış yerləri, erkən şəhər mədəniyyəti, möhtəşəm qala divarları, qayaüstü rəsmləri, daş qoç heykəlləri, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələrlə, digər tarixi abidələrlə zəngindir. Bu abidələr əcdadlarımızın təsərrüfat, ictimai və mənəvi həyatını, adət-ənənələrini və incəsənətini öyrənmək üçün qiymətli mənbədir.

Qeyd edilib ki, muxtar respublika ərazisindəki Qazma, Əshabi-Kəhf və Kilit mağaralarında, Batabat yaylağında, Naxçıvançay və Əlincəçay vadilərində, Haçadağın cənub ətəyində aşkar olunan tarixi abidələr Daş dövrü mədəniyyətinin qalıqlarını yaşatmaqdadır. Naxçıvanın Daş dövrü abidələri içərisində ən məşhuru Əshabi-Kəhfdir. Eradan əvvəl III minilliyə aid edilən abidə bu gün yüzlərlə insanın ziyarət etdiyi müqəddəs məkana çevrilib. Qədim tariximizin yadigarı olan, xalqımızın bir sıra inamlarını özündə yaşadan abidə barədə “Qurani-Kərim”də ayrıca surənin olması onun tarixinin qədimliyini və müqəddəs məkan olduğunu bir daha təsdiqləyir.

Diqqətə çatdırılıb ki, Naxçıvanın ən qədim abidələrindən biri də Gəmiqaya qayaüstü rəsmləridir. Eradan əvvəl IV-I minilliyə aid olan bu abidə Azərbaycan xalqının qədim tarixini və mədəniyyətini özündə yaşadır. Qayaüstü rəsmlərlə və simvolik işarələrlə zəngin olan Gəmiqaya abidəsi əcdadlarımızın bədii təfəkkürünü, adət-ənənələrini, estetik-fəlsəfi baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirən qiymətli təsvirlər qalereyasıdır. Naxçıvan qədim və orta memarlıq abidələri ilə də zəngindir. XII əsrdə qüdrətli Azərbaycan Atabəylər dövlətinin paytaxtı olan Naxçıvan əzəmətli bir şəhər, ölkəmizin siyasi, iqtisadi, mədəniyyət və sənətkarlıq mərkəzlərindən idi. Burada memarlıq sənəti yüksək səviyyəyə çatmış, Azərbaycan memarlığının özünəməxsus orijinal sənət üslubu yaranıb. Həmin üslub sonralar geniş yayılaraq “Naxçıvan memarlıq məktəbi” adı ilə tarixə düşüb. Bu məktəb bəşəriyyətə Əcəmi Əbubəkr oğlu Naxçıvani, Əmirəddin Məsud Naxçıvani, Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani kimi dahi memarlar, sənətkarlar bəxş edib.

Sonra tədbir iştirakçılarının Naxçıvan şəhərindəki “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə ekskursiyası təşkil edilib.

**✍ Nail ƏSGƏROV**

# Gənclər Culfa Bayraq Meydanı - Gülüstan türbəsi istiqamətində yürüş ediblər

***Bu il yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr mövzusunda keçirilən müşavirədə verilən tapşırıqların icrasına uyğun olaraq gənclərin Culfa Bayraq Meydanı - Gülüstan türbəsi istiqamətində yürüşü təşkil olunub.***



Yürüş başlanmazdan əvvəl Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev və Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının sədr müavini Azər Məmmədov çıxış ediblər.

Bildirilib ki, verilən tapşırıqlara uyğun olaraq Gənclər Fondu ilə Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə hazırladığı qrafikə əsasən gənclərin dağlıq ərazilərə, qoruq və yasaqlıqlara yürüşünün təşkil edilməsi nəzərdə tutulub. Ayda bir dəfə olmaqla muxtar respublikamızın tarixi və təbiət abidələrinə həyata keçiriləcək yürüşlərin məqsədi Naxçıvanın turizm potensialının gənclərə tanıdılması, onların asudə vaxtının səmərəli təşkil edilməsi və bacarıqlı gənclərin üzə çıxarılmasından ibarətdir. Bu tədbirlər həm də gənclərin fiziki hazırlıqlarının möhkəmləndirilməsi və bu sahədə bacarıqlı gənclərin üzə çıxarılmasında da əhəmiyyətli rol oynayacaqdır.

Qeyd olunub ki, keçiriləcək yürüşlərə təkcə Naxçıvan şəhərindəki ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan gənclər deyil, eyni zamanda muxtar respublikanın bölgələrində yaşayan gənclər də cəlb olunacaqlar.

Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin kollektivi tərəfindən təqdim olunan bədii hissədən sonra gənclərin yürüşünə start verilib. Gülüstan türbəsi istiqamətində 4 kilometrdən artıq məsafəni başa vuran gənclərə türbənin tarixi və onun bərpası haqqında, eyni zamanda böyük təbiət ərazilərini və rəngarəng ekosistemi əhatə edən “Arazboyu” Dövlət Təbiət Yasaqlığı barədə ətraflı məlumat verilib.

Onu da qeyd edək ki, 60-dan çox gəncin iştirak etdiyi yürüşə Hava və Ekstremal İdman Növləri Federasiyasının Culfa rayon bölməsinin üzvləri də qoşulublar. Yürüşdə fəal iştirak edən gənclərə təşkilatçıların fəxri fərmanları təqdim olunub.

**Xəbərlər şöbəsi**

# Elanlar

Naxçıvan Qızlar Liseyi 2017-2018-ci tədris ili üçün V siniflərə şagird qəbulu elan edir.

Lazımi sənədlər:

*1. 3x4 sm ölçüdə fotoşəkil*
*2. Valideyn ərizəsi*
*3. Təhsil aldığı məktəbdən arayış*
*4. Şəxsiyyət vəsiqəsinin surəti.*

Sənədlər 1.04.2017-ci il tarixdən 5.05.2017-ci il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək Naxçıvan Qızlar Liseyində qəbul edilir.

İmtahan 21 may 2017-ci il tarixdə Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə “İstedad – XXI əsr” kursları tərəfindən keçiriləcək.

İmtahana buraxılış vərəqəsini 5 may 2017-ci il tarixdən 19 may 2017-ci il tarixədək “İstedad – XXI əsr” kurslarından əldə edə bilərsiniz.

***Əlaqə telefonları: 545-03-47, 545-23-62***

* * *

2017-2018-ci tədris ili üçün Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyin VII siniflərinə sənəd qəbulu başlamışdır. Lazım olan sənədlər aşağıdakılardır:

*1. Şəxsiyyət vəsiqəsinin surəti*
*2. 3x4 sm ölçüdə 2 ədəd fotoşəkil*
*3. Valideyn ərizəsi*
*4. Təhsil aldığı məktəbdən arayış.*

Sənədlər 1 aprel 2017-ci il tarixdən 5 may 2017-ci il tarixədək saat $9^{00}$-dan $18^{00}$-dək Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə qəbul edilir.

İmtahan 21 may 2017-ci il tarixdə Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə “İstedad – XXI əsr” kursları tərəfindən keçiriləcəkdir.

İmtahana buraxılış vərəqələrini 5 may 2017-ci il tarixdən 19 may 2017-ci il tarixədək “İstedad – XXI əsr” kurslarından əldə edə bilərsiniz.

*Ünvan: Naxçıvan şəhəri, Nizami küçəsi 20 (Tədris-Ticarət Mərkəzinin 3-cü mərtəbəsi).*

***Əlaqə telefonları: 542-31-63, 542-30-76***

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 263